Mədəni-maarif – 4-2005

# Musiqi tariximizdən

## "Mənsuriyyə"

"Çahargah" məqam-ladının "do" kökünə əsaslanan zərb muğamdır. "Mənsuriyyə" həm müstəqil şəkildə ifa olunan zərb muğam, həm də "Çahargah" dəstgahının tərkibinə daxil olmuş zil şöbədir.

"Mənsuriyyə" mübariz, qəhrəman xarakterli bir zərb muğamdır. Bu muğamda "Mənsuriyyə" ilə birlikdə bəzən "Üzzal" şöbəsi də oxunub-çalınır. "Üzzal" oxunan zaman əsas ritmik fon bariz şəkildə sona qədər davam etdirilir.

"Mənsuriyyə", adətən, qəzəl mətninə oxunur.

## "Mani"

"Şur" ladında qurulan zərb muğamlardan biridir. Xalq, professional musiqiçilər bu muğamı "Osmanı" da adlandırırlar.

Marşvari ritm (4/2 ölçüsündə) bu muğamın sonuna qədər davam edir.

"Mani" xalq sözlərinə oxunur.

"Mani" zərb muğam oxunduqda bir qayda olaraq təsniflə tamamlanır.

## "Heyratı"

"Heyratı" "Rast" ailəsinə daxil olan zərb muğamdır. Özü də "do" mayeli "Rast" məqam-ladına əsaslanır.

"Heyratı" zərb muğamı "Mahur-hindi" muğam dəsgahının ayrı-ayrı melodik dönümlərini özündə cəmləşdirən sərbəst improvizəyə malikdir. Ölçüsü 4/2-dir.

Nikbin, mərd, qəhrəman, əhvali-ruhiyyəni əks etdirir.

"Heyratı" bütün ifa variantlarında qəzəllə oxunur.